**Azərbaycanın qədim tarixə malik olması, Xəzər dənizi sahilində yerləşməsi, tarixi abidələrlə zənginliyi, dünyanın 11 iqlim qurşağından 9-nun burada mövcudluğu və insanların qonaqpərvərliyi ölkəmizdə turizmin inkişafı üçün geniş imkanlar yaradır.**

# Azərbaycan turizmində yeni etap - Bakıda və regionlarda 3 ulduzlu otellərin dövranı başlayır

***Rəhman Quliyev:** "Aşağı kateqoriyalı otellərin sayının artırılması Azərbaycana orta və aşağı büdcəli turistlər cəlb edilməsinə gətirib çıxaracaq"*



Bu sahədə daha ciddi nailiyyətlər əldə edilməsi, ölkəmizə gələcək turistlərin yerləşdirilməsi, onların rahatlığının, gəliş-gedişinin təmin olunması məqsədilə paytaxt Bakıda və ətraf rayonlarda çoxsaylı otel inşa edilib. Paralel olaraq nəqliyyat infrastrukturu müasir tələblər səviyyəsinə çatdırılıb. Bakı şəhərində beynəlxalq avtovağzal kompleksi, rayonlarda yeni avtovağzal binaları inşa edilib, Heydər Əliyev və Naxçıvan beynəlxalq hava limanları yenidən qurulub, Gəncə, Qəbələ, Lənkəran və Zaqatalada müasir hava limanları yaradılıb. Təbii ki, bütün bunlar vətəndaşlarımızın həyat şəraitini daha da yaxşılaşdırmağa xidmət etməklə yanaşı, turizm sektorunun inkişaf etdirilməsinə hesablanıb.

Azərbaycanda turizmin inkişaf etdirilməsi üçün çoxlu sayda iş görülür və görülməkdədir. İnfrastruktur günügündən dəyişir, müasir tələblərə cavab verən istirahət mərkəzləri tikilib. Turistlərin rahatlığı üçün Bakı və regionlarda rəngarəng 4-5 ulduzlu otellər mövcuddur. Təbii ki, həmin otellərin qiyməti hər turistin büdcəsinə görə deyil. Bu səbəbdən də 2-3 ulduzlu otellərin tikilib istirahətsevənlərin ixtiyarına verilməsi dəfələrlə müzakirə olunub.

Məlumat üçün bildirək ki, hazırda Azərbaycanda 600-ə yaxın otel turistlərə xidmət göstərir. Həmin otellərin çoxu isə 4 və 5 ulduzludur. Ölkəyə gələn turistlərin sayının artması 3 və daha az ulduzlu otellərə tələbatı artırıb. Təkcə indiyə qədər Azərbaycan 3 milyondan artıq turist qəbul edib. Bu da, öz növbəsində, yerli sahibkarlarda və xarici investorlarda marağı artırıb.

Bu günlərdə Dövlət Turizm Agentliyinin nümayəndəsi media nümayəndələrinə açıqlamasında bildirib ki, Bakıda və regionlarda yeni otellər açılacaq. Qeyd olunub ki, sahibkarlarla danışıqlar aparılıb və həmin kateqoriyalı otellərin tikintisinə başlanıb. Dövlət bu sahədə biznesə dəstək verir və investorlar üçün müvafiq şərait yaradır: "Nəticə etibarilə, Azərbaycana gələn turistlərin sayının daha da artırılması baxımından dövlət 3 və ondan az ulduzlu otellərin istifadəyə verilməsində maraqlıdır".

Ekspertlər də hesab edirlər ki, qeyri-neft sektorunun əsas sahələrindən biri sayılan turizm sektorunun inkişaf etməsi üçün 2-3 ulduzlu otellərin tikilməsinə ehtiyac var.

Qeyd edək ki, xarici ölkələrdə nəinki 2-3 ulduzlu, hətta ulduzsuz otellər də var. Otellərin müxtəlif tipləri olur, məsələn, motellər, kempinqlər və s. Ümumiyyətlə, turizmin inkişaf etdiyi ölkələrdə bütün kateqoriyalı insanların tələbatını ödəyə biləcək hər cür otel tipləri olmalıdır. İnsanlar müxtəlif səviyyədə yaşadıqlarına və fərqli imkanları olduqlarına görə, təbii ki, otel tipləri də müxtəlif olmalıdır. Xarici ölkələrdə bu təcrübədən geniş yararlanırlar. Hətta elə otel tipli müəssisələr var ki, heç ulduz dərəcəsi də yoxdur. Amma qiymətləri ucuz olduğuna görə belə yerlərdə qalanlar çoxdur. Belə şərait onları qane edir. Analoji hal ölkəmizdə də tətbiq oluna bilər.

Bəllidir ki, 2-3 ulduzlu otellərin inşa olunması arzuolunandır. Bunun üçün, ilk növbədə, sahibkların bu sahəyə marağını artırmaq lazımdır. İnvestorları 2 və 3 ulduzlu otellərin tikintisində maraqlı olması üçün stimullaşdırmaq lazımdır. Bunun üçün vergiqoymada da differensasiya edilməlidir. Yəni 2-3 ulduzlu otellərə vergi güzəştləri tətbiq edilməlidir.

Özəl sektor ayrı-ayrı regionlarda, eləcə də paytaxt Bakıda 2-3 ulduzlu otellərin tikintisinə önəm verməlidir. Bu halda qiymətlərdə kəskin endirimlər edilməli, ölkəmizə gəlməli olan potensial müştərilərin qonşu ölkələrə üz tutmasının qarşısını almaq olar. Həmçinin, turistlərin yerləşdirilməsi ilə əlaqədar mehmanxanalara heç bir qadağa tətbiq edilməməli, əksinə, öncədən bronlaşdırma üçün tədbirlər görülməli, reklam kampaniyaları aparılmalıdır.

Turizm üzrə ekspert Rəhman Quliyev bildirdi ki, Azərbaycanda 3 və daha az ulduzlu otellərin sayının artırılmasına ciddi ehtiyac var: "Çünki ölkədə əsasən bahalı turizm infrastrukturu yaradılıb. Bu isə orta və aşağı kateqoriyalı turistlərin ölkəyə gəlişinin qarşısını alır. Ancaq günün əsas tələbi ucuz, daha az ulduzlu otellərədir. 3 və daha az ulduzlu otellərin qiymətləri 4 və 5 ulduzlu otellərin qiymətləri ilə müqayisədə 50 faizə yaxın ucuz olur. Buna görə də aşağı kateqoriyalı otellərin sayının artırılması Azərbaycana orta və aşağı büdcəli turistlər cəlb edilməsinə gətirib çıxaracaq".

Ekspertin sözlərinə görə, qonşu Gürcüstanda otellərin 70 faizdən çoxunu 3 və daha aşağı ulduzlu otellər təşkil edir. Analoji hal ölkəmizdə də tətbiq oluna bilər.

***Günel CƏLİLOVA***